*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 132-139* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.2.132*

# Cavanşir Yusiflinin tədqiqatlarında poeziyanın nəzəri dərki

**Qumral Mirzəyeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: qumralnergiz@gmail.com

**Annotasiya.** Poeziyanın nəzəri təhlilinə xüsusi diqqət ayıran Azərbaycan ədəbiyyatşünasları arasında Cavanşir Yusifli özünəməxsus mövqeyə malikdir. Onun elmi fəaliyyəti həm klassik, həm də müasir poeziyanın müxtəlif qatlarını əhatə edir və poeziyanın oxucu ilə ünsiyyətini mümkün edən nəzəri mexanizmlərin izahına yönəlir. C.Yusifli üçün poeziya yalnız məna daşıyan mətn deyil, dinamik və canlı bir dil hadisəsidir; burada sözün ritmik, intonativ və simvolik səciyyələri məzmun qədər mühüm sayılır. O, poeziyanı milli ədəbi yaddaşla fasiləsiz qarşılıqlı təsirdə olan hərəkətli sistem kimi təqdim edir.
Tədqiqatçının əsərlərində fərdi üslubun təşəkkülü, müəllif – oxucu münasibətlərinin poetik struktura təsiri, poetik dilin semantik potensialı və janr sərhədlərinin dəyişmə dinamikası kimi nəzəri problemlər mühüm yer tutur. Bununla yanaşı, C.Yusifli müasir Azərbaycan poeziyasında klassik ənənələrin yenidən işlənmə mexanizmlərini və fərdi yaradıcılıq üslublarının ədəbiyyat tarixində yeni baxış perspektivləri yaratmaq imkanlarını da araşdırır.
Bu məqalənin məqsədi Cavanşir Yusiflinin poeziyanın nəzəri idrakına dair yanaşmalarını sistemləşdirmək, onun metodoloji istiqamətlərini müəyyənləşdirmək və Azərbaycan ədəbi prosesində poeziyanın inkişafına verdiyi elmi töhfələri qiymətləndirməkdən ibarətdir. Tədqiqat zamanı tədqiqatçının monoqrafiyaları, elmi məqalələri və müxtəlif müsahibələri müqayisəli şəkildə nəzərdən keçirilmiş, nəzəri baxışları konkret faktlar əsasında təhlil edilmişdir.
**Açar sözlər:** Cavanşir Yusifli, poeziya, nəzəriyyə, fərdi üslub, ənənə və yenilik, klassik-müasir əlaqə, poetik düşüncə

**Məqalə tarixçəsi:** göndərilib – 14.10.2025; qəbul edilib – 28.10.2025

# The study of theoretical aspects of poetry in Javanshir Yusifli's researches

**Gumral Mirzayeva**
Institute of Literary named after Nizami Ganjavi of ANAS
E-mail:qumralnergiz@gmail.com

**Abstract**. Javanshir Yusifli has special position among the prominent scientists who have devoted special attention to the study of the theoretical aspects of poetry in Azerbaijani literary studies. His studies cover both classical and contemporary poetry, focusing on uncovering the theoretical mechanisms that shape the interaction between poetic texts and their readers. Poetry is not just a bearer of meaning, it is a dynamic and living, breathing phenomenon for J.Yusifli, in this context, the rhytmic, intonational and symbolic forces of the word carry as much significance as its semantic content. He presents poetry as a dynamic system in constant dialogue with the national literary memory. Theoretical issues such as the formation of individual style, the relationship between author and reader, the semantic potential pf poetic language and the changing boundaries of genre take an important place in author's studies. J.Yusifli also investigates the transformation of classical traditions in contemporary Azerbaijani poetry and the ways in which individual creative styles can offer new perspectives on literary history. This article aims to organize Javanshir Yusifli's perspectives on the theoretical comprehension of poetry, to identify his methodological directions and asses his scientific contributions to the

development of poetry in Azerbaijani literature. During the research process, researcher's monograhs, scientific articles and diverse interviews were analyzed to illustrate his theoretical positions with concrete examples.
**Keywords:** Javanshir Yusifli, poetry, theory, individual style, tardition and innovation, classical-modern relation, the poetic mind

**Article history:** received – 14.10.2025; accepted − 28.10.2025

## Giriş / *Introduction*

Müasir Azərbaycan ədəbiyyatşünaslığında nəzəri düşüncənin inkişafına mühüm töhfələr verən alim və tənqidçilər arasında Cavanşir Yusifli xüsusi yer tutur. Onun tədqiqatlarında poeziya yalnız bədii-estetik hadisə kimi deyil, həm də nəzəri təhlilin, diskursun və mətnlərarası münasibətlərin əsas obyekti kimi təqdim olunur. Tədqiqatçının araşdırmalarında klassik poeziyanın dərin qatları ilə müasir poetik təfəkkürün qarşılıqlı təsiri, poetik mətnin struktur quruluşu, obraz və simvolların funksionallığı, fərdi üslub anlayışı və şairin yaradıcılıq konsepsiyası geniş işıqlandırılır.

## Əsas hissə / *Main part*

Cavanşir Yusiflinin ədəbiyyata marağı uşaqlıq illərindən etibarən formalaşmağa başlamışdır. Bu marağın yaranmasında bir neçə mühüm amil xüsusi rol oynamışdır. O, elmin və mədəni dəyərlərin yüksək qiymətləndirildiyi bir ailədə böyümüş, yaşadığı bölgənin folkloruna, xalq dastanlarına və şifahi xalq ədəbiyyatına yaxın olmuşdur. Bu mühit onun ədəbiyyata bağlılığını daha da gücləndirmişdir. Folklorun müxtəlif qatlarını öyrənmək və onların mənəvi dəyərlərini anlamaq alimin gələcəkdə klassik və müasir ədəbiyyatı dərin təhlil etməsinə zəmin yaratmışdır. Cavanşir Yusifli məktəb illərindən bədii əsərləri oxumağa və təhlil etməyə başlamış, klassik Azərbaycan şairlərinin yaradıcılığı ilə yaxından tanış olmuş, bu şairlərin əsərlərindəki poetik gözəllik və fəlsəfi dərinlik onun ədəbiyyata marağını daha da artırmışdır. Azərbaycan Dillər Universitetində aldığı təhsil C.Yusiflinin elmi və bədii düşüncəsini formalaşdırmış, burada o, yalnız Azərbaycan ədəbiyyatını deyil, həm də Qərb və Şərq ədəbiyyatlarını dərindən öyrənmişdir. M.F.Axundovun Avropa maarifçiliyinə təsirini araşdırmaq onun tədqiqat maraqlarını genişləndirmişdir. Universitet illərində aldığı biliklər, onun klassik və müasir ədəbiyyata yanaşma tərzini formalaşdırmışdır. Cavanşir Yusifli daim yeni biliklərə və mənbələrə maraq göstərən bir şəxsiyyətdir. O, hər zaman ədəbiyyatın dərinliklərinə nüfuz etməyə, ədəbi əsərlərin arxasındakı mənəvi və mədəni qatları aşkar etməyə çalışmışdır. Onun fərdi yanaşması, analitik təfəkkürü və geniş dünyagörüşü bu marağın davamlı olaraq inkişaf etməsinə şərait yaratmışdır. O, 1980-ci illərin sonlarından etibarən "Ulduz" və "Azərbaycan" jurnallarında dərc olunan yazıları ilə Azərbaycan ədəbiyyatşünaslığında özünə məxsus bir yer tutmağa başlamış və zamanla bu sahədə nəzəriyyə və təhlil istiqamətləri ilə fərqlənmişdir. Onun yaradıcılığı, əsasən bədii mətnin poetikası və mahiyyəti üzərində dərin araşdırmalar aparması ilə səciyyələnir. İlk olaraq, 1988-ci ildə "Ulduz" jurnalında dərc olunan şeirləri onun ədəbi ictimaiyyətə tanıdılmasının başlanğıcı hesab edilə bilər. Lakin zamanla o, ədəbiyyatşünaslıq sahəsində daha dərin tədqiqatlarla məşğul olmuş, bədii mətnin əsas struktur elementlərini araşdıraraq yeni yanaşma modelləri təklif etmişdir [1, s.28]. M.F.Axundovun irsi: Qərb maarifçiliyinin təsirində olan dramaturgiya və "Təmsilat" əsəri üzərində apardığı tədqiqatlar onun tədqiqat sahəsində əhəmiyyətli yer tutur. Cavanşir Yusifli müasir dövrün tendensiyalarını, bədii formalarını və fəlsəfi məsələlərinin araşdırılmasına xüsusi diqqət ayıran alimlərimizdəndir. Onun "*Azərbaycan komediyasının poetikası"* adlı doktorluq işi bu sahədə aparıcı bir nümunədir. Tədqiqatçı bu əsərində Azərbaycan komediyasının poetik xüsusiyyətlərini

araşdıraraq, ədəbi mətnlərin semantik qatlarını, strukturunu və milli ədəbiyyatın qlobal kontekstdəki yerini elmi təhlillərlə işıqlandırmışdır. Bu əsərində o, Azərbaycan komediyasının tarixi inkişaf yolunu, onun Avropa dramaturgiyası ilə qarşılıqlı əlaqəsini və milli özünəməxsusluğunu analiz etmişdir. Cavanşir Yusiflinin ədəbi fəaliyyəti çoxşaxəli, əsasən Azərbaycan ədəbiyyatının tədqiqi, ədəbi tənqid və ədəbiyyat nəzəriyyəsi sahələrini əhatə edir. O həm klassik, həm də müasir Azərbaycan ədəbiyyatını dərindən təhlil edərək, ədəbi proseslərin inkişaf meyillərini müəyyənləşdirməyə çalışmışdır. Onun tədqiqatlarında Azərbaycan komediyasının poetikası, klassik ədəbiyyatın yeni baxış bucağından izahı və müasir bədii mətnlərin semantik-struktur təhlili kimi istiqamətlər əsas yer tutur. O, komediyanı yalnız gülüş elementi üzərində deyil, həm də onun sosial-mədəni funksiyası kontekstində tədqiq etmişdir. C.Yusifli, xüsusilə, M.F.Axundovun komediyalarını Avropa maarifçi dramaturgiyası ilə müqayisəli şəkildə öyrənərək, Axundovun yaradıcılığında satira və ironiyanın yerini və funksiyasını açıq şəkildə göstərmişdir. Onun fikrincə, Azərbaycan komediyası yalnız tənqidi gülüş üzərində qurulmamış, eyni zamanda milli özünüdərk prosesinin bir parçası kimi meydana çıxmışdır.

C.Yusifli müasir Azərbaycan nəsrinin və poeziyasının inkişaf istiqamətlərini də ətraflı tədqiq etmişdir. Müasir Azərbaycan poeziyasını analiz edərkən o, yeni poetik axtarışların, fərqli ritm və sintaktik konstruksiyaların yaranmasını vurğulamış və bu yeniliklərin milli ədəbi ənənələrdən necə qaynaqlandığını izah etmişdir. O, Azərbaycan ədəbi tənqidinə yeni yanaşma üsulları gətirmişdir. C.Yusiflinin ədəbi tənqid sahəsindəki fəaliyyəti Azərbaycan ədəbiyyatının analitik və konseptual izahına mühüm töhfələr vermişdir. Alim ədəbiyyatı yalnız bədii əsərlərin təhlili çərçivəsində deyil, həm də mədəni, fəlsəfi və ictimai kontekstlərdə araşdırmışdır. Onun ədəbi tənqid strategiyası əsasən dərin mətnaltı təhlilə, ədəbi ənənələrin müasir dövrlə əlaqələndirilməsinə və bədii mətnlərin ideoloji, poetik və semantik aspektlərinin üzə çıxarılmasına əsaslanır. O, ədəbi tənqid sahəsində ənənəvi forma və metodları yeniləyərək, Azərbaycan ədəbiyyatında fərqli təhlil üsullarının tətbiqinə çalışmışdır. C.Yusifli bədii mətnlərə yalnız estetik obyekt kimi deyil, həm də ictimai və fəlsəfi dəyərləri əks etdirən fenomen kimi yanaşır. Bu yanaşmalar onun tənqidi məqalələrində və elmi əsərlərində əksini tapır. Məsələn, "Mətn, işarə, məna" adlı məqalədə müəllif mətnin ideya və məzmun qatına deyil, onları yaradan məna qatlarına və işarələr sisteminə fokuslanır. Bundan əlavə, "Ədəbi-filoloji hermenevtika bədii mətndə mənaların interpretasiya texnikası kimi" adlı məqalədə C.Yusifli ədəbi tənqidlə hermenevtika arasındakı əlaqələri araşdırır və mətnlərin çoxqatlı mənalarının açılmasına xüsusi diqqət yetirir [4, s.15]. Müəllifə görə, bədii mətnin qavranılması təkcə emosional təsir dairəsi ilə məhdudlaşmır; o həm oxucunun şəxsi təcrübəsi, həm də mətnlərarası əlaqələr vasitəsilə mənalanır. Tədqiqatçı klassik Azərbaycan ədəbiyyatının müasir dövr üçün yenidən oxunmasını və onun yeni nəzəri yanaşmalar əsasında təhlil edilməsini təklif edir. Mətanət Vahidin "XXI əsrin ədəbi tənqidi: mətn, işarə, məna" adlı məqaləsində Cavanşir Yusiflinin həm klassik, həm də çağdaş ədəbiyyat nümunələrinin təhlil etdiyi qeyd olunur. Onun poeziyaya üstünlük verərək, poeziyanın gerçəküstü olanın ifadəsi olduğunu vurğuladığı göstərilir [3, s.19]. Cavanşir Yusifli müasir Azərbaycan poeziyasında forma və məzmun yeniliklərini, şeirin sintaktik və ritmik strukturlarının transformasiyasını araşdıraraq, yeni nəsil şairlərin yaradıcılığındakı fərqli tendensiyaları izah etmişdir. Onun ədəbi tənqid sahəsində ən çox vurğuladığı məqamlardan biri bədii mətnlərin çoxqatlı anlam sisteminə malik olmasıdır. O, bir çox əsərləri tədqiq edərək, onların daxili strukturlarını və məna sistemlərini açmağa çalışmışdır. Müəllif "Bədii mətn arxeologiyası" adlı məqaləsində bədii mətnlərin ana dilinin poetika müstəvisində düzgün yerləşdirilməsinin bəzi sualları cavablandıra bildiyini vurğulayır. Cavanşir Yusifli qeyd edir ki, "ümumi poetik xəritədə mətn yalnız digər mətnlərlə izah olunur" və Jak Derridanın "bir bədii mətn başqa bir mətnə ön söz kimi anlaşılmalıdır" fikrinə istinad edir [5, s.22].

Azərbaycan poeziyasında XX əsrin ikinci yarısı yeni poetik axtarışların, fərdi üslubların təşəkkül tapdığı mərhələ kimi səciyyələnir. Bu dövrdə Əli Kərim özünəməxsus poetik sistemi ilə

ədəbi mühitdə seçilən sənətkarlardan biri olmuşdur. Onun poeziyası milli ədəbiyyatın klassik və folklor ənənələri ilə müasir bədii-estetik istiqamətlərin sintezini əks etdirir. Əli Kərimin yaradıcılığının öyrənilməsi yalnız poetik mətnlərin analizi ilə məhdudlaşmır, həm də ədəbiyyat tarixində fərdi yaradıcılıq üslubunun nəzəri baxımdan şərhi kimi mühüm əhəmiyyət kəsb edir. Cavanşir Yusifli bu mövzuya xüsusi diqqət yetirərək, *"Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış"* adlı monoqrafiyasında şairin fərdi yaradıcılıq prinsiplərini nəzəri planda təhlil etmişdir. Müəllifin qənaətinə görə, fərdi üslub ədəbiyyatda sadəcə novatorluq, yeni poetik elementlərin yaranması ilə ölçülmür; bu üslub eyni zamanda milli ədəbi yaddaşla qarşılıqlı münasibətdə formalaşır və inkişaf edir. Əli Kərimin poetik irsi bu baxımdan həm klassik ənənənin davamı, həm də müasir poetik şüurun ifadəsi kimi dəyərləndirilə bilər. Şairin obrazlar sistemi, bədii assosiasiyaları, dil və üslub xüsusiyyətləri fərdi yaradıcılıq nümunəsi olmaqla yanaşı, ümumən Azərbaycan poeziyasının inkişaf mərhələlərinin öyrənilməsi üçün nəzəri baxımdan dəyərli material verir. Məhz bu səbəbdən C.Yusiflinin tədqiqatı ədəbiyyatşünaslıqda yalnız Əli Kərim yaradıcılığının deyil, bütövlükdə fərdi üslub probleminin dərkinə yeni yanaşma təqdim edir. Əli Kərim poeziyasında **klassik poeziya ilə dialoq** mühüm yer tutduğundan, onun şeirlərində bir çox motivlər klassik poeziyada olduğu kimi mərkəzi semantik yüklə çıxış edir. Lakin klassik ənənədə ilahi məhəbbətin və əbədiyyətin simvolu olan bu obrazlar Əli Kərimdə daha çox insani duyğuların, gündəlik həyatın poetik ifadəsinə çevrilir. Bu, C.Yusiflinin "ənənənin transformasiyası" adlandırdığı prosesi əks etdirir. Bundan əlavə, şairin poeziyasında **xalq yaradıcılığından gələn ünsürlər** geniş yer tutur [6]. *"Azərbaycan poeziyasında Əli Kərim mərhələsi"* adlı monoqrafiyasında Əli Kərimin yaradıcılığı ayrıca şeir nümunələrinin sadalanması ilə deyil, bütöv bir estetik sistem kimi nəzərdən keçirilir. Filologiya elmləri doktoru Cavanşir Yusifli Azərbaycan şeirində poetik düşüncənin inkişaf xəttinin müəyyən mərhələdə Səməd Vurğun, Rəsul Rza və Mikayıl Müşfiq yaradıcılığında tamamlandığını və həmin nöqtədən etibarən isə Əli Kərimin poetik üslubunun başlandığını bildirir. Bu fikir, əslində, Əli Kərimin poetikasında ənənə ilə yeniliyin dialektik münasibətini, həm davamlılığı, həm də fərqlənmə, başqalaşma məqamlarını ifadə edir. Müəllif Mikayıl Müşfiq, Səməd Vurğun və başqa şairlərin şeirləri ilə Əli Kərimin yaradıcılığından seçdiyi şeirlər arasında müəyyən müqayisələr aparır [8, s.13-20]. Onun fikrincə, **Əli Kərimin ədəbi prosesə təsiri birdən-birə, qəfildən deyil, onun hər bir şeiri, bəndi, misrası, ifadəsi vasitəsilə zaman keçdikcə özünü göstərmişdir.** Bu təsir ani hadisə deyil, **davam edən bir halə**, poetik düşüncənin gələcək nəsillərə ötürülən enerjisi kimi dəyərləndirilir. Əli Kərimin poetikasının dəyərinin də məhz bu *davam edən təsir haləsində*, zamana qarşı dayanıqlığında və yaddaşın dərin qatlarına nüfuz etmək gücündə təzahür etdiyini göstərir. O qeyd edir ki, məhz **polifonik düşüncə tərzi** Əli Kərimin şeirlərini onunla eyni dövrdə ədəbiyyata gələn digər şairlərin poetikasından kəskin şəkildə fərqləndirirdi. C.Yusifli bu fərqi belə izah edir: **Əli Kərimin təqdim etdiyi poetika sistemində şeir bitdiyi anda yox, əksinə, bitdikdən sonra başlayırdı.** Yəni onun poeziyasında məna mətnin içindən deyil, onun sonundan doğur, şeir oxucu ilə qarşılaşma anında yeni bir mərhələyə keçir. Bunun da Əli Kərim poetikasının **açıq strukturlu, çoxqatlı və zamanla yaşayan** təbiətini müəyyənləşdirdiyini bildirirdi. Müəllif qeyd edir ki, **Əli Kərim poetikasında polifoniya anlayışı sadəcə çoxsəslilik və ya müxtəlif tembrlərin bir arada mövcudluğu kimi deyil, daha dərin mənada – şeirə ənənəvi münasibətin kökündən dəyişdirilməsi kimi** başa düşülməlidir. Tədqiqatçının fikrincə, **Əli Kərim şeirində polifoniya şeirin daxili strukturunun çoxhücrəli sistemə çevrilməsi, yəni müxtəlif "səs ucalığına və səs tezliyinə" malik poetik hücrələrin bir-birinə qarışaraq yeni semantik bütövlük yaratması deməkdir. Bununla da Əli Kərim poeziyasında polifoniyanın həm struktur, həm də düşüncə səviyyəsində yeni bir poetik modelin açıq və çoxlaylı poetik sistemin yaranmasına gətirib çıxarması göstərilir.** C.Yusifli fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış prinsipini əsaslandıraraq, yeni bir nəzəri konsepsiya ortaya qoyur. Onun fikrincə, ədəbiyyat tarixini yazmaq, əslində, fərdi üslubların dialoq və qarşılıqlı təsir müstəvisində inkişafını izləməkdir. Əli Kərimin fərdi üslubu isə XX əsr

Azərbaycan poeziyasının yeni mərhələsini müəyyənləşdirən əsas faktorlardan biri kimi təqdim olunur. Beləliklə, tədqiqatçının yanaşması həm konkret ədəbi nümunələrin dərin təhlilinə, həm də ümumiləşdirici nəzəri qənaətlərə əsaslanır. Müəllif  Əli Kərimin Azərbaycan şeirinə çoxdan həsrətində olduğu bir sakitlik və təmkinli axar gətirdiyini vurğulayır. Əli Kərim xarici təsirlərə rəğmən, ədəbi prosesin milli parametrlərə uyğunlaşmasına təkan vermiş, poetik mətnin içində bədii təfəkkürün diferensiasiyasına geniş meydan açmışdır. Bununla yanaşı, ənənəvi anlayışların məzmunu dəyişmiş, şeir sanki yenidən doğularaq insanlara fərqli bir formada, yeni izahlarla çatdırılmışdır. C.Yusiflinin qənaətinə görə, 70-ci illərdən başlayaraq, 80, 90 və xüsusən də 2000-ci illərdə Əli Kərimin reformator təsiri Azərbaycan şeirində tam gücü ilə işləmiş, yalançı effektlər isə tədricən arxa plana çəkilmişdir. O qeyd edir ki, Əhməd Cavadın, Səməd Vurğun və Mikayıl Müşfiqin yazmağa imkan tapmadığı və ya ifadə edə bilmədiyi bir çox məqamlar sonralar Əli Kərimin qələmi və özünəməxsus üslub qəlibində meydana çıxdı. Bu fakt, Əli Kərimin Azərbaycan poeziyasında tutduğu mövqeyi və oynadığı rolu anlamaq baxımından xüsusi dəyər daşıyır. Bununla da belə bir tezisi irəli sürür: şərti şəkildə desək, Səməd Vurğun, Rəsul Rza və Mikayıl Müşfiq poetikasının bitdiyi nöqtədən Əli Kərimin üslubu başlanır və ya tamamilə yeni bir istiqamət qazanır [8, s.12].

CavanşirYusiflinin “*Filoloji fantaziya”* adlı kitabı görkəmli Azərbaycan şairi Ramiz Rövşənin yaradıcılığını poetik sistem kimi təhlil edən elmi araşdırmadır. Monoqrafiyada müəllif Ramiz Rövşənin əsərlərini müxtəlif aspektlərdən incələyərək, onun poeziyasının dərinliklərinə nüfuz edir. Müəllif bu əsərində müxtəlif ədəbi janrları və mətnləri müqayisəli şəkildə incələyir, eyni zamanda dilin və ifadə tərzinin məna yaratma mexanizmini tədqiq edir. Cavanşir Yusiflinin “Filoloji fantaziya” əsərində əsas diqqət mətnlərin dərinliyinə və onların yalnız ədəbi deyil, həm də fəlsəfi və humanitar kontekstdə izahına yönəlib. Müəllif poeziyanın sadəcə bədii təsvir vasitəsi olmadığını, onun metafizik mənalar da daşıdığını göstərməyə çalışır. Bu monoqrafiyada ədəbiyyatın təkcə estetik və emosional təsir gücünə deyil, həm də onun insan düşüncəsinə və ideya sistemlərinə təsirinə diqqət yetirilir. O, mətnləri izah edərkən, onları tarixi, fəlsəfi və mədəni kontekstə yerləşdirərək daha geniş mənalandırmağa çalışır. Kitabda xüsusilə Ramiz Rövşənin poeziyası üzərində dayanılır. Onun şeirləri adi ədəbi təhlildən daha dərinə gedərək, poetik fikrin quruluşu və mənalandırılması baxımından incələnir. Cavanşir Yusifli Ramiz Rövşənin yaradıcılığını filoloji çərçivədə tədqiq edərək onun poeziyasının əsas ideya və məna laylarını açmağa çalışır. Alimin “Filoloji fantaziya” adlı monoqrafiyasında mətni anlama modeli yalnız zahiri poetik strukturların təhlili ilə məhdudlaşmır; o, bədii mətnin yaranma prosesində gizli işləyən semantik mexanizmlərə xüsusi diqqət yetirir. Onun fikrincə, hər bir mətni formalaşdıran daxili proseslər hadisələrin ilkin şəklindən fərqli olaraq, şüuraltı səviyyədə dəyişir, yenidən qurulur və yeni poetik mənalar yaradır. Bu yanaşma onun təqdim etdiyi belə bir əsas tezislə üst-üstə düşür:“Ancaq bir detalı unutmayaq, bizə ‘deformasiyaya’ uğramış şəkildə çatan hər hansı hadisə, əhvalat və sair içimizdə, böyür-başımızda olan hadisə və əhvalatlarla aşkar-gizlin ünsiyyətə girir, onlarla təmas tapır və təmasda olduqları hadisə və əhvalatların sanki xüsusi məqsədlə seçdikləri detalını dəyişdikcə dəyişirlər, bu formada işləyən ‘dəyirman daşı’, yəni əhvalat və informasiyanı bədii mətnə çevirən proses əbədi olaraq bədii mətnin girdabında gizli şəkildə qalır və fəaliyyət göstərir, ancaq bunu nə oxucu, nə də xüsusən müəllif bilir” [10, s.24].

Cavanşir Yusiflinin beş bölmədən ibarət bu monoqrafiyasının *“Bir neçə söz: Ramiz Rövşən yolu”* adlı birinci bölməsində müəllif şairin poetik sistemini, fərdi yaradıcılıq istiqamətlərini və poeziyaya gətirdiyi yenilikləri araşdırır. Ramiz Rövşənin poetik dilinin çoxsəslilik prinsipi üzərində qurulmasından, bu dilin müxtəlif üslubi qatların qarşılıqlı toqquşması, bəhsləşməsi və sintezi nəticəsində formalaşmasından bəhs edilir. Şair klassik poeziya ənənəsindən gələn hazır intonasiyalara və bədii dil qəliblərinə qarşı çıxaraq, onların sərhədlərini aşan, müasir estetik duyumu ifadə edən yeni bir poetik dil sistemi yaradır. Tədqiqatçının qənaətinə görə, Ramiz Rövşən yalnız üslub yeniliyi ilə kifayətlənmir, eyni zamanda poeziyada **janr sərhədlərini genişləndirir,** məlum formalarda gözlənilməz poetik çalarlar meydana gətirir. Bu yaradıcılıq üsulu şairin “məna savaşı”na bağlıdır:

Ramiz Rövşən poetik mətndə məna gərginliyini maksimum həddə çatdırır, sözün adi semantik yükünü aşaraq çoxqatlı anlam qatları yaradır [7, s.53]. *"Mətn trayektoriyasında obrazın məcrası və macərası"* adlı ikinci bölmədə isə Cavanşir Yusifli Ramiz Rövşənin poeziyasında **obrazın yaranma mexanizmi** və **poetik mətn daxilində inkişaf trayektoriyası** üzərində dayanır, Ramiz Rövşən yaradıcılığında obrazın sadəcə estetik təsvir elementi deyil, **müstəqil semantik vahid** kimi mövcud olduğunu göstərir. Onun poeziyasında obrazların dinamikliyi, mətnin axarında hərəkət etməsi, dəyişməsi, yeni mənalar qazanması və şeirin strukturunda semantik gərginlik yaratması kimi məsələlər əhatəli araşdırılır. Yusiflinin gəldiyi nəticələr göstərir ki, Ramiz Rövşənin poeziyasında ritm və intonasiya sadəcə formal-estetik elementlər kimi deyil, **mənanın yaranma və hərəkət prosesinin əsas mexanizmləri** kimi çıxış edir. Şairin şeirləri oxucunu hər dəfə yenidən **fərqli semantik "hərəkətlərə"** sövq edir; məna sabitləşmir, əksinə ritmik-intonasiyalı axında daim dəyişir və yeni istiqamətlər qazanır. *"Ritm və intonasiya"* adlı üçüncü bölmədə müəllif Ramiz Rövşənin poeziyasında fikrin heç vaxt yekun nöqtəyə çatmadığını qeyd edərək, **mənanın sonluğa yaxınlaşdıqca haçalandığını, yeni istiqamətlər almasını göstərir**. ***"Müəllifin ölümü"*** **adlı bölmə Ramiz Rövşənin poeziyasında müəllifin şəxsi niyyətindən çox mətnin özündə yaranan dillərin və obrazların "danışmasına" diqqət yönəldir**. Burada "ölüm" obrazı müəllifin diktəsi ilə sadəcə bir "ibrət dərsi" kimi çıxış etmir; əksinə, **mətnin özündə yeni semantik mərkəzlər doğuraraq müəllifin səsini üstələyir**, "dil açan" bir obraz kimi görünür. Cavanşir Yusiflinin gəldiyi qənaətə əsasən, Ramiz Rövşənin poeziyasında ölüm **məhdudlaşdırıcı yox, geniş məna hadisəsi hesab olunur**. İnsan ömrü ölümə doğru gedərkən kiçilmək, tükənmək əvəzinə sözün həqiqi **mənasında uzanır** [7, s.169].*"Son söz yerinə: Dilin tutulması"* adlı bölümdə isə müəllif Ramiz Rövşən poeziyasında adi, gündəlik hadisə və əşyaların poetik nəfəs qazanaraq insana çevrilməsi, heç kimə tam mənsub olmayan, hamının içində yaşayan ümumbəşəri "adamlar" obrazına dönüşməsi; bu obrazların isə ağrı və qəm vasitəsilə ruhun yeni qatlarını açmağa xidmət etməsindən bəhs edir .

Cavanşir Yusiflinin filoloji tədqiqat istiqamətini təmsil edən əsərlərindən biri də "Sözdən əşyaya" adlı kitabıdır. Tədqiqat əsəri *"Sükutda gizlənən sözlər", "Kəlmələr və əşyalar", "Üslub intonasiyası", "Bir şeirlə dialoq" və "Yuxu mətn kimi"* adlı bölmələri əhatə edir. Kitab esse, tənqidi məqalə və elmi araşdırmanın sintezində formalaşmış və şair Səlim Babullaoğlunun poetik yaradıcılığı çoxistiqamətli şəkildə təhlil olunmuşdur. Cavanşir Yusiflinin fikrincə, şeiri anlamaq intellektual izah və rasional təhlillə məhdudlaşmır. Poetik mətnin mahiyyətini duymaq üçün onu bir düstur və ya formul kimi çözməyə çalışmaq əbəsdir; əsas olan, oxucunun həmin mətnin axarına, onun ritminə və daxili enerjisinə təslim ola bilməsidir. Şeirin dərin qatlarına enmək, onun həqiqətini duymaq yalnız o zaman mümkündür ki, insan bir anlıq rasional düşüncənin sərhədlərindən çıxaraq hissin və təxəyyülün yaratdığı "dəlilik" halına yaxınlaşsın. Bu mənada onun üçün poeziyanı anlamaq həm də idrakın sınağa çəkildiyi bir prosesdir. Rolan Bartın fikirlərinə istinad edən tədqiqatçı poeziyanı dilin sakitliyini pozan, onun sərhədlərini aşan bir hadisə kimi dəyərləndirir. Şeir dilini ənənəvi semantik sistemi sarsıdan, sözü formadan ayıran, mücərrəd tərəflərini üzə çıxaran bir amil kimi təsvir edir. C.Yusiflinin yozumunda şair, dili formanın məhdudiyyətlərindən azad etməyə, sözlə əşya arasındakı münasibəti yenidən qurmağa çalışır. Poeziya bu mənada həm sükutun, həm də onun pozulmasının fəlsəfəsidir. Onun fikrincə, müasir poeziyada sükut təkcə susqunluq halı deyil, həm də dilin özünü dinləmək, sözün səssiz qatını aşkarlamaq formasıdır. O, Səlim Babullaoğlunun poetik mətnlərində intonasiyanın yalnız səslərin ifadəsi deyil, həm də mənaların və yaşantıların strukturlaşdırıcı elementi kimi çıxış etdiyini qeyd edir. Mətnin dərin qatlarında baş verən proseslərin bir misrada qəfil fikir dəyişikliklərinə səbəb ola bildiyini və bu dəyişikliyin digər misralardakı, yaxud qonşu misradakı emosional yaşantılarla "həmqafiyə" effekti yaratdığını bildirir. Onun fikrincə, belə şeirlərdə ifadə tərzi son dərəcə həssasdır; sözlərin, səslərin və misraların mətnin daxili qovğalarına qarşı göstərdiyi həssaslıq intonasiya üçün əsas strukturyaradıcı element rolunu oynayır. Cavanşir Yusifli, Səlim Babullaoğlunun poetik yaradıcılığını şüarvari, ümumi diqqətə yönələn fikirlərdən uzaq adlandırır.

Oxucunun gündəlik düşüncələrindən və maraqlarından asılı olmayan, lakin həyatın çox zaman kənarında qalan detalları üzərində dayandığını, bu "görünməz" məqamları poetik mətndə ön plana çıxarmasilə  Səlim Babullaoğlunun onları yüksək keyfiyyətli poetik nümunələrə çevirdiyi qeyd olunur. Belə yanaşma onun yaradıcılığında həm mövzu seçimi, həm də poetik texnika baxımından fərqləndirici cəhət hesab olunur [9].

Cavanşir Yusifli Səlim Babullaoğlunun poeziyasında əşyalara xüsusi poetik nüfuzetmənin müşahidə olunmasını, bu mətnlərdə söz və əşya arasında qarşılıqlı təsir mexanizminin belə bir həssaslıqla qurulmasında  bəzən həm sözlərin, həm də əşyaların semantik məzmununun deformasiya olunmasının hiss edildiyini bildirir.  Babullaoğlunun şeirlərində tez-tez təkrarlanan "rəf", "tavan", "kitab" kimi motivlərin simvolik sabitlik yaratdığını,  bununla belə, məsələnin əşyaların məhdud çeşidində deyil, hər dəfə bu eyni əşyalara fərqli poetik münasibətin və semantik çaların gətirilməsində olduğunu vurğulayır. Tədqiqatçı şairin "Təksən" adlı şeirindən bir parça nümunə gətirərək, Səlim Babullaoğlunun poeziyasında əşyaların mətndə təsviri və iştirak formasının sırf dekorativ deyil, struktur səciyyə daşıdığını bildirir. Müəllif, əşyaların poetik mətnə daxil olması, orada qalması və ya mətndən kənarda dayanaraq ona təsir göstərməsini xüsusi **həndəsi-biçimlilik** prinsipi ilə gerçəkləşdiyini, yəni əşyaların mətnə daxil olduğu andan etibarən müəyyən **müqayisə mexanizmlərini** hərəkətə gətirdiyini eyni zamanda bu müqayisələrin səthi səviyyədə deyil, mətnin daxili qatlarında, dərinliklərində baş verdiyini yazır [2, s.18]. Əsərin sonunda isə müəllif  Səlim Babullaoğlunun yaradıcılığı ətrafında f.ü.f.d. Samirə Məmmədova və şair-esseist Qismət Rüstəmovla birlikdə geniş təhlili söhbətlər aparır.

## Nəticə / *Conclusion*

Cavanşir Yusiflinin elmi irsi poeziyanın nəzəri dərkinə gətirdiyi çoxplanlı yanaşmaları ilə seçilir və Azərbaycan ədəbiyyatşünaslığında yeni nəzəri perspektivlərin formalaşmasına ciddi təsir göstərir. Tədqiqatçının "Filoloji fantaziya", "Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış", "Azərbaycan poeziyasında Əli Kərim mərhələsi", "Sözdən əşyaya" və digər əsərləri poetik mətni həm tarixi ənənələr, həm də müasir estetik meyillər fonunda yenidən düşünməyə imkan yaradır. Bu araşdırmalar poeziyanın semantik, üslubi və struktur qatlarının çoxölçülü təhlilini aparmaqla poetik düşüncənin sərhədlərini genişləndirir.

C.Yusiflinin yanaşmaları klassik mənbələrə söykənən, lakin modern poetik axtarışlara açıq metodoloji xəttin formalaşmasına xidmət edir. Tədqiqatçı ədəbiyyatın yalnız estetik deyil, həm də sosial və milli funksiyalarını nəzərdən keçirərək poetik mətnin insanın mənəvi dünyası və cəmiyyətlə münasibətləri baxımından da dəyərləndirilməsinin vacibliyini vurğulayır. Onun əsərləri poeziyanın məzmun, forma və semantika baxımından yenidən qiymətləndirilməsinə şərait yaradır və Azərbaycan ədəbiyyatşünaslığında nəzəri düşüncənin inkişafına mühüm töhfə verir.

## Ədəbiyyat / *References*


1. Bəkirqızı P. Cavanşir Yusifli imzası yaxud filoloji fantaziya. Ədəbiyyat qəzeti, 22 sentyabr, 2018 http://www.anl.az/down/meqale/edebiyyat/2018/sentyabr/607824.htm (01/02/2025)
2. Kəlmələr və əşyalar I yazı. "Kaspi" qəzeti 16 iyul, 2016 https://www.anl.az/down/meqale/kaspi_az/2016/iyul/500063.pdf
3. Vahid M. XXI əsrin ədəbi tənqidi: mətn,işarə,məna. "Ədəbiyyat qəzeti", 28 noyabr 2023
4. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/11022-xxi-esrin-edebi-tenqidi-metn-isare-menaYusifli C. Ədəbi-filoloji hermenevtika bədii mətndə mənaların interpretasiya texnikası kimi. Metafizika journal*,* 7(2), 2024 https://metafizikajurnali.az/storage/images/site/files/Metafizika-26/Metafizika.Vol.7%2CNo.2%2CSerial.26%2Cpp.10-30.pdf  (03.02.2025)

5. Yusifli C. Bədii mətn arxeologiyası. "Ədəbiyyat qəzeti", 02 dekabr , 2023, № 46. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/11032-bedii-metn-arxeologiyasi (04.02.2025)
6. Yusifli C. *Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış*. – Bakı: Mütərcim, 2010
7. Yusifli C. Filoloji fantaziya (Ramiz Rövşən yaradıcılığı poetik sistem kimi). – Bakı: YYSQ, 2014, 240 s.
https://kitabxana.net/files/books/file/1414482496.pdf (02.02.2025)
8. Yusifli C. Azərbaycan poeziyasında Əli Kərim mərhələsi. – Bakı: Adiloğlu 2005, 169 s.
9. Yusifli C. Sözdən Əşyaya (Səlim Babullaoğlunun poetik mətnləri barədə filoloji qeydlər və söhbətlər). – Bakı: Mütərcim, 2020, 182 s.
10. Yusifli C. "Filoloji fantaziya" esseləri. Çağdaş hekayələrimiz, yaxud ulduzlarla ixtilat. "Ədəbiyyat qəzeti", 14 avqust 2021
https://www.anl.az/down/meqale/edebiyyat/2021/avqust/753066.htm (28.10.2025)

## Теоретическое восприятие поэзии в исследованиях Джаваншира Юсифли

**Гумрал Мирзаева**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: qumralnergiz@gmail.com

**Резюме.** Джаваншир Юсифли занимает особое место среди азербайджанских литературоведов, которые занимаются теоретическим анализом поэзии. Его научная деятельность охватывает различные аспекты как классической, так и современной поэзии и направлена на объяснение теоретических механизмов, которые позволяют поэзии вступать в диалог с читателем. Для Юсифли поэзия — это не просто текст, несущий смысл, а динамичное и живое языковое явление; здесь ритмические, интонационные и символические особенности слова столь же важны, как и его содержание. Он представляет поэзию как динамическую систему, находящуюся в постоянном взаимодействии с национальной литературной памятью.
В работах исследователя важное место занимают теоретические проблемы, такие как формирование индивидуального стиля, влияние отношений автор–читатель на поэтическую структуру, семантический потенциал поэтического языка и динамика изменения жанровых границ. Кроме того, Юсифли исследует механизмы переработки классических традиций в современной азербайджанской поэзии и возможности создания новых перспектив в истории литературы через индивидуальные творческие стили.
Цель данной статьи – систематизировать подходы Джаваншира Юсифли к теоретическому познанию поэзии, определить его методологические направления и оценить научные вклады в развитие поэзии в азербайджанском литературном процессе. В ходе исследования были сравнительно рассмотрены монографии, научные статьи и различные интервью Юсифли, а его теоретические взгляды проанализированы на основе конкретных фактов.
**Ключевые слова:** Джаваншир Юсифли, поэзия, теория, индивидуальный стиль, традиция и новаторство, связь классического и современного, поэтическое мышление